## HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Azərbaycan yazıçısı, nasir, kinodramaturq, rejissor Maqsud Məmməd İbrahim oğlu İbrahimbəyov 1935-ci il may ayının 11-də Bakıda anadan olmuşdur.***

| | |
|---|---|
| **1955** | Azərbaycan Texniki Universitetinin İnşaat fakültəsinə qəbul olmuşdur. |
| **1958-1959** | Tələbə inşaat dəstələrinin tərkibində istehsalat praktikasını xam torpaqlarda tikinti işlərində keçirmişdir. |
| **1960** | Azərbaycan Dövlət Politexnik İnstitutunu inşaatçı ixtisası iüzrə bitirib.<br>Bədii yaradıcılığa başlamışdır.<br>Azərbaycan Tikinti Nazirliyinin Ağır Sənaye İnşaatı Trestində mühəndis kimi işləmişdir. |
| **1961** | İlk kitabı nəşr olunmuşdur. |
| **1960-1962** | Azərbaycan SSR Tikinti Nazirliyinin ağır sənaye inşaatı trestində mühəndis işləyib. |
| **1962** | "Azərbaycan Ağırsənayetikinti Tresti"ndə işləyib.<br>SSRİ Jurnalistlər İttifaqına üzv qəbul edilib. |
| **1962-1964** | Moskva Ali Ssenaristlər Kursunda təhsil alıb. |
| **1963** | "Fəlakət" adlı ilk kitabı işıq üzü görüb. |
| **1964** | SSRİ Yazıçılar ittifaqının üzvlüyünə qəbul olub.<br>Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. |
| **1966** | SSRİ Kinematoqrafçılar İttifaqına üzv seçilib. |
| **1968** | "Uşaqlığın son gecəsi" kitabı Moskvada nəşr edilmişdir və Maksud İbrahimbəyov bədii kino sahəsinə “Uşaqlığın son gecəsi” əsərinə çəkilən filmi ilə gəlmişdir. O zaman “Komsomolskaya pravda” onu Azərbaycan kinematoqrafının dirçəlişi prosesində “ilk qaranquş” adlandırmışdır. |
| **1964-1971** | Mərkəzi Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan üzrə xüsusi müxbiri olmuşdur. |
| **1971-1973** | Moskva Ali Rejissorluq Kursunda müdavim olmuşdur. |
| **1974** | "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rejissor işləyib. |
| **1995, 2000, 2005** | Azərbaycan Respublikası Milli Məclisinin millət vəkili olmuşdur. |
| **1976** | “Bayquş gəlmədi" və "Bütün yaxşılıqlar üçün - ölüm!" əsərlərinə görə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüşdür. |
| **1979** | Azərbaycan SSR əməkdar incəsənət xadimi fəxri adını almışdır. |
| **1984** | “Qırmızı əmək bayrağı” ordeni ilə təltif olunmuşdur. |

| | |
|---|---|
| **1991** | Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (Beynəlxalq əlaqələr üzrə katib) seçilmişdir. |
| **1995** | “Şöhrət” ordeni almışdır. |
| **1998** | Azərbaycan Respublikasının xalq yazıçısı fəxri adını almışdır. |
| **1999** | Azərbaycan Prezidenti Heydər Əliyevin dəstəyi ilə ölkədə Əsilzadələr Məclisini bərpa edərək onun sədri olub. |
| **2002** | Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü təsis olunub. |
| **2005** | **“**İstiqlal” ordeni almışdır. |
| **2011** | "Şikayət qəbul olunmur" romanının təqdimat mərasimi keçirilib. |
| **2012** | Maqsud İbrahimbəyov ədəbiyyat sahəsində Nobel mükafatı nominantları arasında yer alıb. |
| **2015** | **“**Şərəf” ordeni almışdır. |
| **2016** | 22 mart - Bakı şəhərində vəfat etmiş, I Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **2018** | 1 fevral “Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi”nin təsis edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. |
| | 30 mart “Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi”nin açılışı olub. |
| **2020** | “Qara paltarlı qadın” povesti və “Uşaqlığın son gecəsi” hekayələr kitabı rus dilindən tərcümə edilərək çap olunub. |
| **2021** | “Kərgədan buynuzu” romanı rus dilindən tərcümə edilərək Tibilisidə çap olunub. |
| **2023** | İyunun 2-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, Xalq yazıçısı Maqsud İbrahimbəyova həsr edilmiş “Maqsud əbədidir” kitabının və “Bağçadakı rahat yer” tamaşasının premyerası olub. |
| **2025** | 13 fevral “Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. |